# *Nikol PAŞİNYAN:* "Əldə etdiyimiz sülh həmçinin Azərbaycan dövlətinin və xalqının nailiyyətidir"



Ermənistanın Baş naziri Nikol Paşinyan sentyabrın 30-da Avropa Şurası Parlament Assambleyasının payız sessiyasında çıxış edib.

AZƏRTAC erməni mətbuatına istinadla xəbər verir ki, Paşinyan Ermənistan ilə Azərbaycan arasında əldə olunmuş sülhü yüksək qiymətləndirərək bildirib: "Əldə etdiyimiz yeni sülhün bu gün 1 ay 22 günü tamam olur. Biz bu sülhün qayğısına qalmalıyıq, qorumalıyıq ki, daha da möhkəmlənsin".

Sülhün əldə olunmasında Azərbaycanın rolunu xüsusi qeyd edən Paşinyan deyib: "Mən məmnunluqla qeyd edirəm ki, bu gün Ermənistan ilə Azərbaycan arasında sülh var. Amma mən deyə bilmərəm ki, bu yalnız Ermənistan hökumətinin və erməni xalqının xidmətidir. Bu eləcə də Azərbaycan dövlətinin və Azərbaycan xalqının nailiyyətidir. Əgər Azərbaycan tərəfinin də əzmi olmasaydı, sülh də olmazdı. Bu eyni zamanda Azərbaycan və Ermənistan parlamentlərinin nailiyyətidir".

N.Paşinyan çıxışı zamanı daha sonra bildirib: "Ermənilərin Qarabağa qayıdışının real olduğunu düşünmürəm. Bu, çox riskli məsələdir".

O deyib: "İnsanlar tez-tez məndən ermənilərin Qarabağa qayıtmasının nə dərəcədə real olduğunu soruşurlar. Düzünü desəm, mən bunun real olduğunu düşünmürəm. Eyni zamanda mən bu məsələni sülh prosesi üçün təhlükəli hesab edirəm". N.Paşinyanın sözlərinə görə, Qarabağdan gələn ermənilər Ermənistanda qalmalıdırlar və artıq onların mənzillərlə təmin edilməsi proqramına başlanılıb.

Azərbaycan. - 2025.-1 oktyabr (№210).- S.7.